# Romalılara 1

1İsa Məsihin qulu, həvari olmağa çağırılmış, Allahın Müjdəsini yaymaq üçün seçilmiş
mən Pauldan salam! 2Allahın Öz peyğəmbərləri vasitəsilə Müqəddəs Yazılarda
əvvəlcədən vəd etdiyi o Müjdə 3Oğlu Rəbbimiz İsa Məsih haqqındadır. O, cismən Davud
nəslindəndir, müqəddəslik Ruhuna görə isə ölülər arasından diriləræk Allahın Oğlu
olduğu qüdrətlə elan olundu. 4Oğlu Rəbbimiz İsa Məsih haqqındadır. O, cismən Davud
nəslindəndir, müqəddəslik Ruhuna görə isə ölülər arasından dirilərək Allahın Oğlu
olduğu qüdrətlə elan olundu. 5Biz Onun vasitəsilə lütfə və həvariliyə nail olduq ki, Onun
adı naminə bütün millətlərdən olan insanları imana itaət etməyə çağıraq. 6Siz də İsa
Məsihə məxsus olmaq üçün çağırılmış o insanların arasındasınız. 7Romada yaşayan,
Allahın sevdiyi və müqəddəs olmağa çağırdığı sizin hamınıza Atamız Allahdan və Rəbb
İsa Məsihdən lütf və sülh olsun!

### Paulun Romaya getmək arzusu

8Hər şeydən əvvəl, hamınız üçün İsa Məsihin vasitəsilə Allahıma şükür edirəm ki,
imanınız bütün dünyada elan olunur. 9Oğlunun Müjdəsini yaymaqda bütün qəlbimlə
ibadət etdiyim Allah şahidimdir ki, mən sizi necə daim yada salıram. 10Dualarımda
həmişə yalvarıram ki, Allahın iradəsi ilə nəhayət yanınıza gəlməyə nail olum. 11Çünki
sizi qüvvətləndirmək üçün sizə ruhani bir ənam çatdırmaq məqsədindəyəm; buna görə də
sizi görmək üçün həsrət çəkirəm. 12Daha doğrusu, mən aranızda olarkən bir-birimizin
imanı ilə qarşılıqlı halda ruhlanaq. 13Ey qardaşlar, bixəbər olmağınızı istəmirəm ki,
başqa millətlərdən olan digərləri arasında etdiyim kimi sizin aranızda da əməyimin
bəhrəsini götürüm deyə dəfələrlə yanınıza gəlmək niyyətində olmuşam, amma indiyədək
maneələrə rast gəldim. 14Mən həm Yunanlara, həm də barbarlara, həm aqillərə, həm də
cahillərə borcluyam. 15Bu səbəbdən mən Romada yaşayan sizlərə də bacardığım qədər
Müjdəni yaymağa həvəsim var.

### Müjdədəki Allah salehliyi

16Mən Müjdədən utanmıram, çünki o, iman edən hər kəsin – əvvəlcə Yəhudinin, sonra
da Yunanın xilası üçün Allahın qüdrətidir. 17Müjdədə Allahın salehliyi aşkar olur və bu
salehlik tamamilə imanla əldə edilir. Necə ki yazılıb: «Saleh adam imanla yaşayacaq».

### Adamların günahkarlığı

18Həqiqətə haqsızlıqla əngəl törədən adamların hər cür allahsızlığı və haqsızlığı
ucbatından Allahın qəzəbi göydən aşkar olur. 19Çünki Allah haqqında məlum olan şeylər
onlara aşkardır, Allah Özü bunu onlara aşkar edib. 20Dünyanın yaradılışından bəri
Allahın gözə görünməyən xüsusiyyətləri, yəni əbədi qüdrəti və ilahiliyi Onun yaratdıqları
vasitəsilə üzə çıxır. Buna görə də onlar üzrsüzdür. 21Adamlar Allahı tanıdıqları halda
Ona nə Allah kimi izzət verdilər, nə də şükür etdilər. Əksinə, boş düşüncələrə uydular və
axmaq ürəklərini qaranlıq bürüdü. 22Müdrik olduqlarını iddia etdikləri halda ağılsız olub,
23fani olmayan Allahın izzətini fani olan insana, quşlara, dördayaqlılara və sürünənlərə
bənzəyən bütlərlə əvəz etdilər. 24Buna görə də Allah onları ürəklərinin şəhvəti üzündən

murdarlığa təslim etdi ki, bir-birlərinin bədənini rüsvay etsinlər. 25Onlar Allahın
həqiqətini yalanla əvəz etdilər, Yaradanın yerinə yaradılışa səcdə və ibadət etdilər; o
Yaradana əbədi alqış olsun! Amin. 26Bu səbəbdən Allah onları öz rəzil həvəslərinə təslim
etdi. Onların qadınları təbii əlaqəni qeyri-təbii əlaqə ilə əvəz etdilər, 27eyni tərzdə kişilər
də qadınla olan təbii əlaqədən əl çəkib bir-birlərinə şəhvətlə qızdılar; kişilər kişilərlə
rüsvayçılıq edib öz daxillərində rəzilliklərinə layiq cəzanı aldılar. 28Allahı şüurlarında
saxlamağı yanlış saydıqları üçün Allah da onları yanlış düşüncələrə təslim etdi ki, ədəbsiz
işlər görsünlər. 29Onlar hər cür haqsızlıq, pislik, tamahkarlıq və kinlə doldular; paxıllıq,
qatillik, münaqişə ruhu, hiylə və pis niyyətlə dolub-daşdılar. Onlar qeybətçi, 30böhtançı,
Allaha nifrət edən, söyüşçü, məğrur, təkəbbürlü, pis işlərdə bacarıqlı, ata-anaya itaətsiz,
31axmaq, xain, şəfqətsiz və rəhmsizdir. 32Hərçənd ki belə işlərlə məşğul olanların ölümə
layiq olduğu barədə Allahın ədalətli hökmünü bilirlər, amma yenə də bu işləri görürlər,
hətta belə işlər görən başqalarını da alqışlayırlar.

# Romalılara 2

### Allahın ədalətli hökmü

1Beləliklə, sən ey başqasını mühakimə edən adam, kim olursansa-ol, sən də üzrsüzsən.
Çünki başqasını mühakimə edərkən özünü də məhkum edirsən. Ona görə ki başqasını
mühakimə etdiyin halda özün də həmin işləri görürsən. 2Bizsə bilirik ki, belə işlərlə
məşğul olanlara Allah həqiqətə əsasən hökm çıxarır. 3Ey belə işlərlə məşğul olanları
mühakimə edərək özü də həmin işləri görən insan! Məgər elə güman edirsən ki, Allahın
hökmündən qaça biləcəksən? 4Yaxud sən Allahın zəngin xeyirxahlığına, həlimliyinə və
səbirli olmağına xor baxırsan? Bəs anlamırsan ki, Onun xeyirxahlığı səni tövbəyə
yönəldir? 5Amma sən Allahın qəzəbinin və ədalətli hökmünün zahir olacağı gün
inadkarlığına və tövbə etməyən ürəyinə görə özün üçün qəzəb toplayırsan; 6Allah hər
kəsə əməlinə görə əvəzini verəcək: 7dözümlə yaxşı əməl sahibi olaraq izzət, hörmət və
ölməzlik axtaranlara əbədi həyat, 8özlərini göstərərək həqiqətə tabe olmayıb haqsızlığa
baş əyənlərə isə qəzəb və hiddət göndərəcək. 9Pislik edən hər kəsə – əvvəlcə Yəhudiyə,
sonra da Yunana əziyyət və sıxıntı, 10yaxşı əməl sahibi olan hər kəsə isə – əvvəlcə
Yəhudiyə, sonra da başqa millətdən olana izzət, hörmət və sülh verəcək. 11Çünki Allah
insanlar arasında tərəfkeşlik etməz. 12Qanunu bilmədən günah edənlərin hamısı Qanunu
bilməsələr də, həlak olacaqlar. Qanunu bilərək günah edənlərin də hamısı Qanunla
mühakimə olunacaq. 13Çünki Allahın nəzərində Qanunu eşidənlər deyil, ona əməl
edənlər saleh sayılır. 14Beləcə Qanuna malik olmayan başqa millətlər təbiətlərinə görə
Qanuna əməl edəndə Qanuna malik olmadıqları halda onlar özləri üçün qanun olur.
15Onlar bununla göstərirlər ki, Qanunun tələbləri ürəklərində yazılıb. Onların vicdanı
buna şahiddir, düşüncələri də onları gah ittiham, gah da müdafiə edir. 16Mənim elan
etdiyim Müjdəyə görə, Allahın Məsih İsa vasitəsilə insanların gizli işlərini mühakimə
edəcəyi gün belə olacaq.

### Yəhudilər və Qanun

17Ey özünü Yəhudi adlandıran! Qanuna güvənərək Allahla öyünürsən; 18Onun iradəsini
bilirsən, Qanundan təlim aldığın üçün ən üstün dəyərləri ayırd edirsən; 19əminsən ki,

Qanunda bilik və həqiqətin əsasını tapdığın üçün korlara bələdçi, zülmətdə olanlara işıq,
ağılsızlara tərbiyəçi, uşaqlara müəllimsən. [20]əminsən ki, Qanunda bilik və həqiqətin
əsasını tapdığın üçün korlara bələdçi, zülmətdə olanlara işıq, ağılsızlara tərbiyəçi,
uşaqlara müəllimsən. [21]Bəs nə üçün başqalarını öyrətdiyin halda özün öyrənmirsən?
Oğurlamamağı bəyan edərkən özün oğurlayırsan? [22]«Zina etmə» dediyin halda özün zina
edirsən? Bütlərdən iyrənərkən məbədləri soyursan? [23]Qanunla öyünməyinə baxmayaraq,
onu pozub Allahı hörmətdən salırsan. [24]Axı belə yazılıb: «Sizin üzünüzdən millətlər
arasında Allahın adına küfr edilir». [25]Sünnətin yalnız o zaman faydası var ki, sən Qanuna
əməl edəsən. Əgər sən Qanunu pozursansa, sünnətli olduğun halda sünnətsiz adam kimi
olursan. [26]Eləcə də əgər sünnət olunmamış adam Qanunun ədalətli tələblərinə riayət
edirsə, sünnət olunmamasına baxmayaraq, sünnətli sayılır. [27]Onda cismən sünnət
olunmadığı halda Qanuna əməl edən adam səni mühakimə edəcək; sən ki yazılı Qanuna
və sünnətə malik olduğun halda Qanunu pozursan. [28]Çünki zahirən Yəhudi olan Yəhudi
deyil, zahirən və cismən sünnət olunan da sünnətli deyil. [29]Yalnız daxilən Yəhudi olan
Yəhudidir. Sünnət də ürəyə aid olub, yazılı Qanuna görə deyil, Ruhun işidir. Belə adamın
tərifi də insandan yox, Allahdan gələr.

# Romalılara 3

### Allahın sədaqəti

[1]Bəs Yəhudi olmağın nə üstünlüyü var? Sünnətin faydası nədir? [2]Hər cəhətdən böyük
üstünlüyü var. Hər şeydən əvvəl, Allahın sözləri Yəhudilərə əmanət edilib. [3]Əgər
onlardan bəzisi iman etmədisə, onda nə olacaq? Məgər onların imansızlığı Allahın
sədaqətini ləğv edə bilər? [4]Əsla! Bütün insanlar yalançı olsa da, Allah haqlıdır. Necə ki
yazılıb: «Sən Öz sözlərində haqlı çıxacaqsan,

Mühakimə etdiyin zaman qalib gələcəksən».

[5]Bəs bizim haqsızlığımız Allahın ədalətli olduğunu üzə çıxarırsa, onda nə deyə bilərik?
İnsanların düşündüyü kimi soruşuram: Allah üzərimizə qəzəbini gətirən zaman
haqsızdırmı? [6]Əsla, haqlıdır! Bəs Allah dünyanı başqa cür necə mühakimə edə bilər?
[7]«Bəs mənim yalanım Allahın həqiqətini ucaldıb Ona izzət gətirirsə, nə üçün mən üstəlik
bir günahkar kimi mühakimə olunmalıyam?» deyə soruşa bilərlər. [8]Belə isə, «gəlin pislik
edək ki, bundan yaxşılıq əmələ gəlsin» deyə bilərikmi? Bəzi adamlar bizə böhtan atıb
söyləyir ki, biz belə öyrədirik. Belə söyləyənlər haqlı olaraq cəza alacaq.

### Saleh olan yoxdur

[9]Bəs nə deyək? Biz Yəhudilərin üstünlüyü varmı? Əlbəttə, yox! Çünki biz artıq həm
Yəhudiləri, həm də Yunanları təqsirləndirdik ki, onların hamısı günahın hökmü
altındadır. [10]Necə ki yazılıb: «Saleh olan yoxdur,

Bir nəfər belə, yoxdur.

[11]Dərk edən bir kəs yoxdur,

Allahı axtaran yoxdur.

[12]Hamısı yoldan azıb,

Onlardan fayda yoxdur.

Bir nəfər də olsun

Yaxşı iş görən yoxdur».

[13]«Boğazları açıq qəbirdir,

Dilləri yalan danışır».

«Dodaqlarında gürzə zəhəri var».

[14]«Ağızları lənət və acı sözlərlə doludur».

[15]«Ayaqları qan tökməyə tələsir,

[16]Yollarında viranəlik və fəlakət var,

[17]Əmin-amanlıq yolu nədir, bilmirlər».

[18]«Onların gözündə Allah qorxusu yoxdur».

[19]Biz bilirik ki, Qanunda deyilənlərin hamısı Qanunun hökmü altında olanlara aiddir;
belə ki bütün dillər sussun və bütün dünya Allahın hökmünə məruz qalsın. [20]Beləliklə,
Qanuna əməl etməklə heç bir insan Allahın önündə saleh sayılmayacaq. Çünki Qanun
vasitəsilə günah dərk olunur.

**İman və salehlik**

[21]Amma indi Qanuna bağlı olmayaraq Allahdan gələn salehlik zahir olub. Buna Qanun
da, Peyğəmbərlərin yazıları da şəhadət edir. [22]Allahdan gələn bu salehlik İsa Məsihə
iman vasitəsilə Ona iman gətirənlərin hamısına verilir. Heç kəsə fərq qoyulmur. [23]Çünki
hamı günah edib, Allahın izzətindən məhrum olub [24]və Onun lütfü ilə də Məsih İsada
satın alınmağa nail olaraq bir hədiyyə kimi saleh sayılır. [25]Allah İsanı kəffarə qurbanı
olaraq təqdim etdi ki, iman edənlərin günahları Onun qanı vasitəsilə bağışlansın. Bunu
Öz salehliyini göstərmək üçün etdi. Çünki səbirli olub qabaqca edilən günahları cəzasız
qoymuşdu. [26]Bunu etdi ki, indiki zamanda salehliyini zahir etsin; beləcə Özü ədalətli
olsun, İsaya olan imana əsaslananı da saleh saysın. [27]Bəs biz nə ilə öyünə bilərik? Heç
bir şeylə. Hansı ehkama əsaslana bilərik? Qanuna əməl etmək ehkamınamı? Xeyr, yalnız
iman ehkamına! [28]Çünki bu nəticəyə gəlirik ki, insan Qanuna əməl etməklə deyil, iman
vasitəsilə saleh sayılır. [29]Məgər Allah yalnız Yəhudilərin Allahıdır? Başqa millətlərin də

Allahı deyilmi? Əlbəttə, başqa millətlərin də Allahıdır. 30Çünki yalnız bir Allah var və
O, sünnətliləri imanla, sünnətsizləri də iman vasitəsilə saleh sayacaq. 31Onda biz iman
vasitəsilə Qanunu ləğv edirikmi? Əsla! Əksinə, onu bir daha təsdiq edirik.

# Romalılara 4

### İbrahimin imanı

1Bəs onda cismani əcdadımız İbrahim haqqında nə deyə bilərik? O nə əldə etdi? 2Əgər
İbrahim öz əməlləri ilə saleh sayılsaydı, öyünməyə haqqı olardı, amma Allahın önündə
yox. 3Müqəddəs Yazı nə deyir? «İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı».
4Əməl edənin muzdu ona hədiyyə sayılmaz, bu onun haqqıdır. 5Lakin əməl etməyib
allahsız adamları saleh sayan Allaha iman edən şəxsin imanı ona salehlik sayılır. 6Davud
da o adamın bəxtiyarlığından danışır ki, Allah əməlinə baxmayıb onu saleh sayır:
7«Üsyankarlığı bağışlanan,

Günahı əfv olunan insan

Nə bəxtiyardır!

8Rəbb tərəfindən təqsirkar sayılmayan insan

Nə bəxtiyardır!»

9Məgər bu bəxtiyarlıq yalnız sünnətlilərə məxsusdur, yoxsa sünnətsizlərə də aiddir? Bəli,
biz deyirik ki, İbrahimin imanı ona salehlik sayıldı. 10Nə vəziyyətdə sayıldı? Sünnət
olunandan sonra, yoxsa sünnət olunandan əvvəl? Sünnət olunandan sonra deyil, sünnət
olunandan əvvəl! 11O, sünnətsiz ikən imanla malik olduğu salehliyi təsdiq edən möhür
olaraq sünnət əlamətini aldı. Beləcə İbrahim sünnətsiz olaraq iman edən hamının atası
oldu ki, onlara da imanları salehlik sayılsın. 12Atamız İbrahim həm də o sünnətli
olanların atası oldu ki, sadəcə sünnətli olmaqla qalmayıb, onun sünnət edilməmişdən
əvvəl malik olduğu iman izi ilə gedirlər. 13Çünki İbrahimə və onun nəslinə dünyanı irs
almaq vədi Qanun vasitəsilə deyil, imanla saleh sayılmaq vasitəsilə verildi. 14Əgər
Qanuna əsaslananlar varis olsaydı, onda iman mənasız, vəd də təsirsiz olardı. 15Çünki
qanun Allahın qəzəbini üzə çıxarır. Amma qanun olmayan yerdə onun pozulması da
olmur. 16Buna görə də vəd imanla həyata keçir ki, Allahın lütfünə bağlı olsun və
İbrahimin bütün nəslini – yalnız Qanuna deyil, İbrahimin malik olduğu həmin imana da
əsaslananları əhatə etsin. İbrahim iman etdiyi Allahın – ölülərə həyat verən, yoxluqdan
varlıq yaradan Allahın önündə hamımızın atasıdır. Necə ki yazılıb: «Səni çoxlu millətin
atası etdim». 17Buna görə də vəd imanla həyata keçir ki, Allahın lütfünə bağlı olsun və
İbrahimin bütün nəslini – yalnız Qanuna deyil, İbrahimin malik olduğu həmin imana da
əsaslananları əhatə etsin. İbrahim iman etdiyi Allahın – ölülərə həyat verən, yoxluqdan
varlıq yaradan Allahın önündə hamımızın atasıdır. Necə ki yazılıb: «Səni çoxlu millətin
atası etdim». 18Heç bir ümid olmadığı halda İbrahim çoxlu millətin atası olacağına
ümidlə inandı. Çünki ona deyilmişdi ki, «nəslin o qədər olacaq». 19Hətta təxminən yüz
yaşında ikən öz bədəninin artıq ölüyə bənzədiyini, arvadı Saranın da bətninin ölü

olduğunu anladı, amma imanı azalmadı. [20]Allahın vədinə imansızlıqla şübhə etmədi,
əksinə, imanında möhkəm durub Allahı izzətləndirdi. [21]Tamamilə əmin idi ki, Allah
verdiyi vədi yerinə yetirməyə də qadirdir. [22]Buna görə də imanı ona salehlik sayıldı.
[23]«Salehlik sayıldı» sözləri yalnız İbrahim üçün yazılmayıb; [24]Rəbbimiz İsanı ölülər
arasından Dirildənə iman etməklə saleh sayılacaq bizlər üçün də belə yazılmışdır. [25]İsa
bizim təqsirlərimizə görə ölümə təslim edildi və bizim saleh sayılmağımız üçün dirildi.

# Romalılara 5

### Allahla barışmaq

[1]Beləliklə, imanla saleh sayıldığımız üçün Rəbbimiz İsa Məsih vasitəsilə Allahla barışmış
oluruq. [2]Elə Məsihin vasitəsilə də daxilində qaldığımız lütfə imanla nail olduq və Allahın
izzətinə ümid bağlamağımızla fəxr edirik. [3]Yalnız bununla deyil, çəkdiyimiz əziyyətlərlə
də fəxr edirik, çünki bilirik ki, əziyyətdən dözüm, [4]dözümdən Allaha xoş gəlmə, Allaha
xoş gəlmədən ümid yaranır. [5]Ümidimiz də boşa çıxmır, çünki Allah məhəbbəti bizə
verilən Müqəddəs Ruh vasitəsilə ürəklərimizə tökülüb. [6]Biz hələ gücsüz ikən Məsih
müəyyən zamanda allahsız adamların uğrunda öldü. [7]Saleh bir adam uğrunda kiminsə
ölməsi çətin işdir; bəlkə də yaxşı bir adam uğrunda kimsə ölməyə cəsarət edər. [8]Lakin
Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim
uğrumuzda öldü. [9]Beləcə Onun qanı ilə indi saleh sayıldığımıza görə Onun vasitəsilə də
Allahın qəzəbindən mütləq xilas olacağıq. [10]Əgər biz Allahın düşməni olduğumuz vaxt
Onun Oğlunun ölməsi ilə Allahla barışdıqsa, barışdıqdan sonra Onun həyatı vasitəsilə
daha qəti olaraq xilas olacağıq. [11]Yalnız bununla deyil, Rəbbimiz İsa Məsih vasitəsilə
Allahla da fəxr edirik ki, indi Onun vasitəsilə Allahla barışığa nail olmuşuq.

### Adəm və Məsih

[12]Beləliklə, günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə
ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi. [13]Qanundan əvvəl də dünyada
günah var idi. Amma qanun olmayanda günah hesaba alınmır. [14]Lakin Adəmdən Musaya
qədər ölüm hamıya, hətta Adəmin əmri pozmasına bənzər bir günah etməyənlərə də
hökmranlıq etdi. Adəm o gələcək İnsanın əvvəlcədən göstərilən təsviri idi. [15]Amma
Allahın ənamı təqsir kimi deyil. Çünki bir adamın təqsiri üzündən çox adam öldüsə də,
Allahın lütfü və bir Adamın, yəni İsa Məsihin lütfü ilə verilən ənam bir çoxları üçün daha
böyük təsir göstərdi. [16]Allahın ənamı həmin bir adamın günahının nəticəsi kimi deyil: bir
günahdan sonra gələn hökm məhkumluq gətirdi, amma çoxlu təqsirdən sonra gələn ənam
salehlik gətirdi. [17]Əgər bir adamın təqsiri üzündən ölüm həmin adamın vasitəsilə
hökmranlıq etdisə, Allahın bol lütfünü və salehlik ənamını qəbul edənlər bir Adam, yəni
İsa Məsih vasitəsilə daha qəti olaraq həyatda hökmranlıq edəcək. [18]Deməli, necə ki bir
təqsir üzündən bütün adamlar məhkum olundu, eləcə də bir saleh əmələ görə bütün
adamlara yaşamaq üçün salehlik verildi. [19]Necə ki bir adamın itaətsizliyi üzündən bir
çoxları günahkar sayıldı, eləcə də bir Adamın itaəti sayəsində bir çoxları saleh sayılacaq.
[20]Qanunun meydana gəlməsi təqsirin çoxalmasına səbəb oldu. Lakin günah çoxalan
yerdə Allahın lütfü daha da çoxaldı. [21]Nəticədə günah ölüm vasitəsilə hökmranlıq etdiyi

kimi lütf də salehlik vasitəsilə hökmranlıq edir; belə ki lütf Rəbbimiz İsa Məsihin
vasitəsilə əbədi həyat versin.

# Romalılara 6

### Məsihlə ölüb-dirilmə

[1]Bəs nə deyə bilərik? Günah işlətməyi davam etdirək ki, Allahın lütfü çoxalsın? [2]Əsla!
İndi ki biz günaha münasibətdə ölmüşük, artıq günah içində necə yaşaya bilərik? [3]Məgər
bilmirsiniz ki, biz hamımız Məsih İsa ilə birləşmək üçün vəftiz olunarkən həmin vəftizlə
Onun ölümü ilə birləşdik? [4]Deməli, vəftiz olunub Onun ölümü ilə birləşməklə biz də
Onunla birgə dəfn olunduq; belə ki Atanın izzəti ilə Məsih ölülər arasından dirildiyi kimi
biz də həmin cür yeni həyat sürək. [5]Əgər Onun ölümünə bənzər ölümdə Onunla bir
olmuşuqsa, Onun dirilməsinə bənzər dirilmədə də Onunla bir olacağıq. [6]Bunu bilirik ki,
günahlı bədənin aradan qaldırılması üçün, daha günaha qul olmayaq deyə köhnə
mənliyimiz Onunla birlikdə çarmıxa çəkildi. [7]Çünki ölmüş adam günahdan azad olub.
[8]Əgər Məsihlə ölmüşüksə, Onunla yaşayacağımıza da inanırıq. [9]Çünki bilirik ki, Məsih
ölülər arasından dirildiyinə görə bir daha ölməyəcək və ölüm Ona artıq hökmranlıq
etməz. [10]Onun ölümü günahın müqabilində ilk və son ölüm oldu, yaşadığı həyatı isə
Allah üçün yaşayır. [11]Beləcə siz də özünüzü Məsih İsada olaraq günaha münasibətdə ölü,
Allaha münasibətdə isə diri sayın. [12]Ona görə də qoymayın ki, günah sizin fani
bədəninizə hökmranlıq etsin və siz də bədəninizin ehtiraslarına itaət edəsiniz.
[13]Bədəninizin üzvlərini də haqsızlıq aləti olmaq üçün günaha təslim etməyin; əksinə,
özünüzü ölülər arasından dirilənlər kimi Allaha, bədəninizin üzvlərini də salehlik aləti
olmaq üçün yenə Allaha təslim edin. [14]Günah sizə hökmranlıq etməyəcək, ona görə ki
siz Qanun altında deyil, lütf altındasınız.

### Salehliyə itaət

[15]İndi nə edək? Qanun altında deyil, lütf altında olduğumuz üçün günah edəkmi? Əsla!
[16]Məgər bilmirsiniz ki, itaətli qullar kimi özünüzü kimə təslim etsəniz, onun da
qullarısınız? Ya ölümə aparan günahın ya da salehliyə aparan itaətin qulları ola bilərsiniz.
[17]Amma Allaha şükür olsun ki, əvvəllər günahın qulları olduğunuz halda özünüzü həsr
etdiyiniz təlimin nümunəsinə ürəkdən itaət etdiniz. [18]Beləcə günahdan azad olub
salehliyin qulu oldunuz. [19]Cismani təbiətinizin zəifliyi üzündən insanların düşündüyü
kimi danışıram. Necə əvvəllər üzvlərinizi murdarlığa və Qanunu pozmaq üçün
qanunsuzluğa qul kimi təslim etmişdiniz, eləcə də indi üzvlərinizi müqəddəs olmaq üçün
salehliyə qul kimi təslim edin. [20]Çünki siz günahın qulları olanda salehliyə əməl
etməkdən azad idiniz. [21]Bəs o zaman nə bəhrə götürdünüz? İndi artıq o şeylərdən
utanırsınız. Axı onların axırı ölümdür. [22]Amma indi günahdan azad edilib Allaha qul
olduğunuz üçün götürdüyünüz bəhrə sizi müqəddəsliyə aparır və bunun axırı da əbədi
həyatdır. [23]Çünki günahın əvəzi ölümdür, Allahın ənamı isə Rəbbimiz Məsih İsada olan
əbədi həyatdır.

# Romalılara 7

### Qanundan azad olmaq

[1]Ey qardaşlar, bunu Qanunu bilənlərə söyləyirəm, məgər bilmirsiniz ki, insan yalnız sağ
ikən qanun onun üzərində hökmə malikdir? [2]Məsələn, ərli qadın qanunla ərinə o
vaxtacan bağlıdır ki, əri sağdır; amma əri öldükdə qadın nikah qanunundan azad olur.
[3]Buna görə də əgər qadın əri sağ ikən başqa bir kişiyə ərə gedirsə, zinakar sayılır. Amma
əri ölsə, qadın qanundan azad olur və başqa bir kişiyə ərə getdikdə zinakar olmur. [4]Eləcə
də, qardaşlarım, siz də Məsihin bədəni vasitəsilə Qanuna münasibətdə ölmüsünüz ki,
başqasına, yəni ölülər arasından dirilmiş Məsihə məxsus olasınız; belə ki Allah üçün
bəhrə verək. [5]Çünki biz cismani təbiətə görə yaşayarkən günahın Qanun vasitəsilə gələn
həvəsləri üzvlərimizdə fəal idi. Buna görə də biz ölüm üçün bəhrə verirdik. [6]Amma indi
əvvəlcə əsiri olduğumuz Qanuna münasibətdə ölüb, ondan azad olduq. Nəticədə yazılı
Qanunun köhnə yolunda deyil, Ruhun yeni yolunda qulluq edirik.

### Günahla mübarizə

[7]Bəs nə deyə bilərik? Qanun günahdırmı? Əsla! Qanun olmasaydı, günahın nə olduğunu
bilməzdim. Əgər Qanun «tamah salma» deməsəydi, tamahın nə olduğunu anlamazdım.
[8]Lakin günah bu əmrin vasitəsilə fürsət tapıb məndə hər növ tamah əmələ gətirdi; çünki
Qanun olmasa, günah ölüdür. [9]Bir vaxt Qanun məndə yox ikən mən sağ idim, amma o
əmr mənə gələndə günah dirildi, [10]mənsə öldüm. Beləcə anladım ki, mənə həyat verməli
olan bu əmr mənə ölüm gətirdi. [11]Çünki günah o əmrin vasitəsilə fürsət tapıb məni
azdırdı və onunla məni öldürdü. [12]Buna görə də Qanun müqəddəsdir, əmr də müqəddəs,
ədalətli və yaxşıdır. [13]Belə çıxır ki, yaxşı olan bir şey mənə ölüm gətirdi? Əsla! Məhz
günah, günah olduğu aşkar olsun deyə yaxşı olan bir şeyin vasitəsilə mənə ölüm gətirirdi;
belə ki günah əmrin vasitəsilə hədsiz günahlı olduğunu göstərsin. [14]Biz bilirik ki, Qanun
ruhanidir, mənsə cismani olub qul kimi günaha satılmışam. [15]Çünki nə iş gördüyümü
anlamıram; istədiyimi deyil, nifrət etdiyim şeyi edirəm. [16]Əgər istəmədiyimi edirəmsə,
onda təsdiq edirəm ki, Qanun yaxşıdır. [17]Elə isə artıq mən deyil, daxilimdə yaşayan
günah bu işi görür. [18]Bilirəm ki, daxilimdə, yəni cismani təbiətimdə yaxşı bir şey
yaşamır; çünki yaxşı şey etmək istəyi məndə var, amma onu yerinə yetirməyə qadir
deyiləm. [19]İstədiyim yaxşı şeyi etmirəm, amma istəmədiyim pis şeyi edirəm. [20]Əgər
istəmədiyim şeyi edirəmsə, onda artıq mən deyil, daxilimdə yaşayan günah bu işi görür.
[21]Beləcə bu nəticəyə gəlirəm ki, yaxşılıq etmək istərkən məndə pislik üzə çıxır. [22]Bir
yandan daxili varlığım Allahın qanunundan zövq alır. [23]Amma üzvlərimdə başqa bir
qanun da görürəm ki, ağlımın təsdiq etdiyi Qanunla mübarizə aparır və üzvlərimdə olan
günah qanununa məni əsir edir. [24]Necə də yazıq insanam! Ölümə düçar olan bu
bədəndən məni kim xilas edə bilər? [25]Rəbbimiz İsa Məsihin vasitəsilə Allaha şükür
olsun! Beləcə mən ağlımla Allahın qanununa, cismani təbiətimlə isə günah qanununa
qulluq edirəm.

# Romalılara 8

### Həyat verən Ruh

[1]Deməli, indi Məsih İsada olanlara heç bir məhkumluq yoxdur. [2]Çünki həyat verən
Ruhun qanunu səni günah və ölüm qanunundan Məsih İsa vasitəsilə azad etdi. [3]Beləcə
cismani təbiət üzündən gücsüz olan Qanunun edə bilmədiyini Allah etdi: Öz Oğlunu
günahlı cismin bənzərində günah qurbanı olaraq göndərib günahı Onun cismi ilə məhkum
etdi ki, [4]Qanunun ədalətli tələbləri artıq cismani təbiətə görə yox, Ruha görə həyat sürən
bizlərdə yerinə yetsin. [5]Cismani təbiətə görə yaşayanlar cismani şeylər barədə düşünür,
Ruha görə yaşayanlar isə Ruhla bağlı şeylər barədə düşünür. [6]Cismani təbiətə uyan
fikirlər ölüm, Ruha uyan fikirlərsə həyat və sülh gətirir. [7]Çünki cismani təbiətə uyan
fikirlər Allaha qarşı düşmənçilik edir; belə ki bunlar Allahın qanununa tabe deyil və ola
da bilməz. [8]Həmçinin cismani təbiətdə olanlar Allahı razı sala bilməz. [9]Lakin Allahın
Ruhu sizdə yaşayırsa, siz cismani təbiətdə deyil, Ruhdasınız. Kimdə Məsihin Ruhu
yoxdursa, o adam Məsihə məxsus deyil. [10]Əgər Məsih sizdədirsə, bədəniniz günah
səbəbindən ölü, ruhunuzsa salehlik səbəbindən diridir. [11]Əgər İsanı ölülər arasından
Dirildənin Ruhu sizdə yaşayırsa, Məsihi ölülər arasından Dirildən, sizdə yaşayan Ruhu
ilə sizin də fani bədənlərinizə həyat verəcək. [12]Beləliklə, ey qardaşlar, biz cismani
təbiətimizə borclu deyilik ki, ona görə yaşayaq. [13]Çünki cismani təbiətə görə
yaşayırsınızsa, öləcəksiniz, amma bədənin pis əməllərini Ruhun vasitəsilə
öldürürsünüzsə, yaşayacaqsınız. [14]Allahın Ruhu ilə yönəldilənlərin hamısı Allahın
oğullarıdır. [15]Axı siz köləlik ruhunu almadınız ki, yenə də qorxu içində yaşayasınız;
övladlıq Ruhunu aldınız. Elə o Ruhun vasitəsilə Allaha «Abba, Ata» deyə nida edirik.
[16]Elə Ruh Özü bizim ruhumuzla birgə şəhadət edir ki, biz Allahın övladlarıyıq. [17]Əgər
Onun övladlarıyıqsa, deməli, həm də varisləriyik. Əgər Məsihin izzətinə şərik olmaq
üçün Onun çəkdiyi əzablara şərik oluruqsa, Allahın varisləri və Məsihin irs şəriki oluruq.

### İzzətli gələcəyimiz

[18]Belə düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə
gəlməz. [19]Yaradılış Allahın oğullarının zahir olmasını böyük həsrətlə gözləyir. [20]Çünki
yaradılış öz iradəsi ilə deyil, onu Təslim Edənin iradəsi ilə puçluğa təslim edildi. Amma
ümidvardır ki, [21]yaradılış özü də çürüməyə əsir olmaqdan xilas olub, Allah övladlarının
izzətli azadlığına qovuşacaq. [22]Çünki bilirik ki, bütün yaradılış indiyəcən birlikdə
inildəyib doğuş ağrısı çəkir. [23]Ancaq təkcə yaradılış yox, Ruhun nübarını alan biz
özümüz də övladlığa qəbul olunmağımızı, yəni bədənimizin satın alınmasını gözləyərək
içimizdə inildəyirik. [24]Çünki biz ümidlə xilas olduq. Amma gözə görünən ümid ümid
deyil. Axı kim gördüyü şeyə ümid edər? [25]Amma görmədiyimiz şeyə ümid edəndə onu
səbirlə gözləyirik. [26]Beləcə Ruh da bizə zəif olarkən kömək edir. Biz nə üçün və necə
dua etmək lazım olduğunu bilmirik, lakin Ruh Özü dillə deyilməyən ahlarla vəsatətçilik
edir. [27]Ürəkləri sınayan Allah da Ruhun nə düşündüyünü bilir, çünki Ruh Allahın
iradəsinə görə müqəddəslər üçün vəsatətçilik edir. [28]Biz bilirik ki, hər şey birlikdə Allahı
sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir. [29]Çünki Allah
qabaqcadan tanıdığı adamları Öz Oğlunun surətinə uyğunlaşmaq üçün əvvəlcədən təyin

etdi ki, O, çoxlu qardaş arasında ilk doğulan olsun; [30]əvvəlcədən təyin etdiyi adamları da
çağırdı; çağırdığı adamları da saleh saydı; saleh saydığı adamları da izzətləndirdi.

**Məsihin məhəbbətindən bizi kim ayıra bilər?**

[31]Bəs bunlar barədə nə deyə bilərik? Əgər Allah bizimlədirsə, kim bizə qarşı dura bilər?
[32]O Öz Oğlunu belə, əsirgəməyib Onu hamımızın uğrunda ölümə təslim etdisə, Onunla
birgə bütün şeyləri də bizə lütf etməyəcəkmi? [33]Allahın seçdiyi adamları kim ittiham edə
bilər? Onları saleh sayan Allahdır! [34]Məhkum edən kimdir? Ölmüş, üstəlik dirilmiş
Məsih İsa həm Allahın sağındadır, həm də bizim üçün vəsatətçilik edir. [35]Məsihin
məhəbbətindən bizi kim ayıra bilər? Əziyyətmi, sıxıntımı, təqibmi, aclıqmı, çılpaqlıqmı,
təhlükəmi, qılıncmı? [36]Necə ki yazılıb: «Biz gün boyu Sənin uğrunda öldürülürük,

Qurbanlıq qoyunlar sayılırıq».

[37]Lakin bizi Sevənin vasitəsilə bütün bunlarda tam qələbə qazanırıq. [38]Çünki əminəm ki,
nə ölüm, nə həyat, nə mələklər, nə başçılar, nə indiki, nə də gələcək şeylər, nə qüvvələr,
[39]nə ucalıq, nə dərinlik, nə də başqa bir məxluq bizi Rəbbimiz Məsih İsada olan Allah
məhəbbətindən ayırmağa qadir olmayacaq.

# Romalılara 9

**Allahın İsraili seçməsi**

[1]Məsihdə həqiqəti söyləyirəm, yalan danışmıram, vicdanım dediklərimi Müqəddəs Ruhda
təsdiq edir ki, [2]ürəyimdə böyük bir kədər, daimi bir iztirab var. [3]Çünki qardaşlarımın,
yəni cismani soydaşlarımın xatirinə mən özüm Məsihdən uzaqlaşıb lənət qazanmağımı
istərdim; [4]bu, İsraillilərdir ki, övladlığa götürülmə, izzət, əhdlər, Qanunun verilməsi,
məbəd ibadəti və vədlər onlara məxsusdur. [5]Əcdadlar da onlara məxsusdur, Məsih də
cismən onlardandır; O hər şeyin üzərində olan Allahdır ki, Ona əbədi alqış olsun! Amin.
[6]Lakin bu o demək deyil ki, Allahın kəlamı boşa çıxıb. Çünki İsraildən törəyənlərin heç
də hamısı İsrailə məxsus deyil. [7]İbrahimin nəslindən olanların heç də hamısı İbrahimin
övladları deyil. Amma «İshaqdan törəyənlər sənin nəslin adlanacaq» deyilib. [8]Bu o
deməkdir ki, Allahın övladları cismani övladlar deyil, Allahın vədinə görə doğulan
övladlardır ki, bunlar İbrahimin nəsli sayılır. [9]Çünki belə vəd verilmişdi: «Gələn il bu
vaxt gələcəyəm və Saranın bir oğlu olacaq». [10]Yalnız bu yox, Rivqa da bir kişidən, yəni
babamız İshaqdan hamilə oldu. [11]Amma iki oğlu hələ anadan olmamış və yaxşılıq ya
pislik etməmiş ikən Allah Rivqaya «böyüyü kiçiyinə qulluq edəcək» dedi; belə ki Allahın
seçim məqsədi onların əməllərinə deyil, Öz çağırışına əsaslanaraq bərqərar olsun.
[12]Amma iki oğlu hələ anadan olmamış və yaxşılıq ya pislik etməmiş ikən Allah Rivqaya
«böyüyü kiçiyinə qulluq edəcək» dedi; belə ki Allahın seçim məqsədi onların əməllərinə
deyil, Öz çağırışına əsaslanaraq bərqərar olsun. [13]Necə ki yazılıb: «Yaqubu sevdim,
Esava isə nifrət etdim». [14]Bəs indi nə deyə bilərik? Məgər Allah ədalətsizlik edir? Əsla!
[15]Çünki O, Musaya deyir: «Kimə istəsəm, mərhəmət edərəm, kimə istəsəm, rəhm
edərəm». [16]Beləliklə, seçim insanın istəyindən yaxud səyindən deyil, yalnız mərhəmət
edən Allahdan asılıdır. [17]Ona görə də Müqəddəs Yazıda Allah firona deyir: «Səni buna

görə ucaltdım ki, Öz gücümü sənin üzərində göstərim və adım bütün dünyaya elan
edilsin». 18 Deməli, Allah kimə istəyirsə, mərhəmət edir, kimi istəyirsə, inadkar edir.

**Allahın qəzəbi və mərhəməti**

19 İndi sən mənə deyə bilərsən: «Bəs Allah daha nə üçün bizi təqsirkar çıxarır? Məgər
kimsə Onun iradəsinin əleyhinə gedə bilər?» 20 Amma, ey insan, sən kimsən ki, Allahla
mübahisəyə girişirsən? Məgər düzəldilən bir şey onu düzəldənə «Məni niyə bu cür
yaratdın?» deyə bilər? 21 Məgər dulusçunun işlətdiyi gilə ixtiyarı çatmır ki, həmin gildən
bir qabı şərəfli iş üçün, o biri qabı isə şərəfsiz iş üçün düzəltsin? 22 Əgər Allah qəzəbini
göstərmək və qüdrətini bildirmək istəyərək qəzəbinə gəlib məhv olmağa hazırlanmış
qablara böyük səbirlə dözdüsə, biz nə deyə bilərik? 23 Məgər O bunu etdi ki, qabaqcadan
izzət üçün hazırladığı mərhəmət tapan qablara izzətinin necə zəngin olduğunu bildirsin?
24 O qablar bizik ki, Allah yalnız Yəhudilər arasından deyil, həm də başqa millətlər
arasından çağırdı. 25 Necə ki Huşənin kitabında deyilir: «“Xalqım deyil” dediyimə

“Xalqımsan” deyəcəyəm,

“Sevdiyim deyil” dediyimə

“Sevdiyimsən” deyəcəyəm».

26 «Onlara “siz Mənim xalqım deyilsiniz” deyilən yerdə “siz var olan Allahın
övladlarısınız” deyiləcək». 27 Yeşaya da İsrail barədə belə nida edir: «İsrail övladlarının
sayı dəniz qumu qədər çox olsa belə,

Ancaq sağ qalanları xilas olacaq.

28 Çünki Rəbb yer üzündə hökmünü

Tam və tez yerinə yetirəcək».

29 Yeşayanın qabaqcadan söylədiyi kimi: «Əgər Ordular Rəbbi

Bizim xalqdan bir neçə

Sağ qalan adam qoymasaydı,

Biz Sodom kimi olardıq,

Homorraya bənzəyərdik».

**İsrailin imansızlığı**

30 Bəs nə deyə bilərik? Salehliyin ardınca getməyən başqa millətlər salehliyi, yəni imanla
gələn salehliyi əldə etdilər. 31 Amma salehlik göstərən Qanunun ardınca gedən İsrail xalqı

bu Qanuna çata bilmədi. [32]Nə üçün? Çünki imanla yox, əməllərlə gedirdilər. Beləcə
büdrəmə daşına ilişdilər. [33]Necə ki yazılıb: «Budur, Sionda bir büdrəmə daşı və yıxma
qayası qoyuram.

Ona iman edən kəs utandırılmaz».

# Romalılara 10

[1]Ey qardaşlar, İsraillilərin xilasını ürəkdən arzulayıram və bunun üçün Allaha dua
edirəm. [2]Onların barəsində şəhadət edirəm ki, Allah naminə qeyrət çəkirlər, amma bu
qeyrət biliyə əsaslanmır. [3]Çünki onlar Allahdan gələn salehliyi anlamayıb öz
salehliklərini bərqərar etməyə çalışmaqla Allahın salehliyinə tabe olmadılar. [4]Məsih
Qanunun sonu olub ki, iman gətirən hər kəs saleh sayılsın.

**Hamı üçün xilas**

[5]Musa Qanunla gələn salehlik haqqında belə yazır: «Bu şeyləri yerinə yetirən adam
bunların sayəsində yaşayacaq». [6]Amma imanla gələn salehlik barədə belə deyilir:
«Ürəyində demə ki, "Kim göylərə, yəni Məsihi endirməyə çıxacaq?" [7]ya da "Kim dibsiz
dərinliyə, yəni Məsihi ölülər arasından qaldırmağa enəcək?"» [8]Bəs onda nə deyilir?
«Kəlam sənə çox yaxındır, o sənin dilində və ürəyindədir». Biz elə həmin iman kəlamını
vəz edirik: [9]əgər sən İsanın Rəbb olduğunu dilinlə iqrar edib Allahın Onu ölülər
arasından diriltdiyinə ürəkdən inansan, xilas olacaqsan. [10]Çünki insan ürəkdən iman
etməklə saleh sayılır və dili ilə iqrar etməklə xilas olur. [11]Belə ki Müqəddəs Yazıda
deyilir: «Ona iman edən hər kəs utandırılmayacaq». [12]Burada Yəhudi ilə Yunan arasında
fərq yoxdur, hamısının Rəbbi birdir və Onu çağıranların hamısına bol bərəkət verir.
[13]Çünki «Rəbbin adını çağıran hər kəs xilas olacaq». [14]Bəs onlar iman etmədikləri Şəxsi
necə çağıracaqlar? Barəsində eşitmədikləri Şəxsə necə iman edəcəklər? Vəz edən olmasa,
necə eşidəcəklər? [15]Göndərilməsələr, necə vəz edəcəklər? Necə ki yazılıb: «Xoş xəbəri
müjdələyənin qədəmləri necə də gözəldir!» [16]Amma Müjdəyə hamı qulaq asmadı. Çünki
Yeşaya deyir: «Ya Rəbb, xəbərimizə kim inandı?» [17]Beləliklə, iman eşitməkdən, eşitmək
də Məsihin kəlamı vasitəsilə yaranır. [18]Lakin soruşuram: məgər onlar eşitmədilər?
Əlbəttə ki, eşitdilər: «Avazları bütün dünyaya yayıldı,

Sözləri yerin ucqarlarına çatdı».

[19]Bir də soruşuram: məgər İsrail anlamadı? Musa ilk olaraq deyir: «Mən sizi xalq
olmayanlarla qısqandıracağam,

Axmaq bir millətlə qəzəbləndirəcəyəm».

[20] Yeşaya isə cəsarətlə deyir: «Rəbb deyir:

"Məni axtarmayanlar tərəfindən tapıldım,

Məni soruşmayanlara Mən zühur etdim"».

[21]İsrail barədə isə belə deyir: «Gün boyu itaətsiz, dikbaş xalqa əllərimi uzadıb durdum».

# Romalılara 11

### Allahın seçdiyi xalq

[1]Beləliklə, soruşuram: məgər Allah Öz xalqını rədd etdi? Əsla! Çünki mən özüm də
İbrahim nəslindən, Binyamin qəbiləsindən olan bir İsrailliyəm. [2]Allah qabaqcadan
tanıdığı Öz xalqını rədd etmədi. Məgər siz bilmirsiniz ki, Müqəddəs Yazıda İlyas barədə
nə deyilir? İlyas İsraildən Allaha şikayət edib deyir: [3]«Ya Rəbb! Sənin peyğəmbərlərini
öldürdülər, qurbangahlarını dağıtdılar. Təkcə mən qaldım, onlar canımı almaq üçün məni
də axtarırlar». [4]Bəs Allahdan ona hansı cavab gəldi? «Mən Özüm üçün Baal qarşısında
diz çökməmiş yeddi min adamı saxlamışam». [5]Beləcə indi də Allahın lütfü ilə seçilmiş
sağ qalanlar var. [6]Əgər bu, lütflə oldusa, daha əməllərlə deyil; yoxsa lütf daha lütf olmaz.
[7]Onda nə deyə bilərik? İsrail axtardığını əldə etmədi, seçilmişlər əldə etdilər; digərləri isə
inadkar oldu. [8]Necə ki yazılıb: «Allah onları dərin yuxuya saldı,

Onlara bu günədək görməyən gözlər,

Eşitməyən qulaqlar verdi».

[9]Davud da belə deyir: «Süfrələri onlara tələ, tor,

Büdrəmə daşı və cəza olsun.

[10]Gözlərinə qara gəlsin, görməsinlər,

Bellərі həmişə bükülü qalsın!»

### Başqa millətlərin xilası

[11]Beləliklə, soruşuram: məgər İsraillilər bir daha ayağa qalxmamaq üçün büdrəyib-
yıxıldılar? Əsla! Amma onların təqsiri başqa millətlərin xilasına səbəb oldu ki,
İsraillilərdə qibtə hissi oyandırsın. [12]Əgər onların təqsiri dünyaya zənginlik, onların
qüsuru da başqa millətlərə zənginlik gətirdisə, gör onların bütövlüyü necə böyük
zənginlik gətirəcək. [13]Lakin, ey başqa millətlər, sizə bildirirəm: mən başqa millətlərə
göndərilən həvari olduğuma görə öz xidmətimi izzətli sayıram ki, [14]bəlkə soydaşlarımda
qibtə hissi oyandırıb bəzilərini xilas edə bilim. [15]Çünki onların rədd edilməsi dünyanın
Allahla barışması deməkdirsə, onların qəbul edilməsi ölülər arasından həyata dönmək
deyilmi? [16]Əgər xəmirin ilk hissəsi müqəddəsdirsə, demək, xəmirin hamısı müqəddəsdir;
əgər kök müqəddəsdirsə, budaqlar da müqəddəsdir. [17]Amma bəzi budaqlar qoparılıbsa
və sən, ey yabanı zeytun ağacı, onların arasında peyvənd olunub zeytun ağacının barlı
kökünə şərik olmusansa, [18]o budaqların qabağında öyünmə; öyünsən, bil ki, sən kökü
deyil, kök səni daşıyır. [19]O zaman deyəcəksən: budaqlar qoparıldı ki, mən onların yerinə
peyvənd olunum. [20]Doğrudur; onlar imansızlıqlarına görə qoparıldı, amma sən imanına

görə yerində durursan. Buna görə təkəbbürlü olma, əksinə, qorx! 21Çünki Allah təbii
budaqlara rəhm etmədisə, bəlkə sənə də rəhm etməyəcək. 22Sən gör ki, Allah eyni
zamanda həm xeyirxahdır, həm də sərt: yıxılanlara sərtlik, sənə isə, əgər Onun
xeyirxahlığına bağlı qalarsansa, xeyirxahlıq göstərər. Əks təqdirdə sən də kəsilib
atılacaqsan. 23Əgər imansızlıqda qalmasalar, onlar da peyvənd olunacaqlar, çünki Allah
onları yenə də peyvənd etməyə qadirdir. 24Əgər sən təbiətən yabanı olan zeytun
ağacından kəsilib, təbiətinə uyğun olmadan yetişdirilən zeytun ağacına peyvənd
edildinsə, bu təbii budaqlar öz zeytun ağacına necə də asanlıqla peyvənd olunacaq!

**Bütün İsrail xilas olacaq**

25Ey qardaşlar, özünüzü ağıllı saymayasınız deyə bu sirdən bixəbər olmağınızı
istəmirəm: İsrailin bəzisi o vaxta qədər inadkar qalacaq ki, başqa millətlərdən xilas
olanların sayı tamamlansın. 26Beləcə bütün İsrail xilas olacaq. Necə ki yazılıb: «Qurtarıcı
Siondan gələcək,

Yaqub nəslindən allahsızlığı uzaqlaşdıracaq».

27«Günahlarını aradan qaldırdığım zaman

Mənim onlarla bağladığım Əhd budur».

28Müjdə məsələsində İsraillilər sizin üçün Allaha düşməndir, amma Allah onları
seçdiyinə görə əcdadlarının xatirinə Onun üçün sevimlidir. 29Çünki Allahın ənamları və
dəvəti geri alınmaz. 30Siz bir zamanlar Allaha itaətsiz idiniz və indi onların itaətsizliyi
üzündən mərhəmət tapdınız; 31eləcə də sizin tapdığınız mərhəmətdən ötrü onlar indi
itaətsiz oldular ki, özləri də indi mərhəmət tapsınlar. 32Çünki Allah hamını itaətsizliyə
əsir edib ki, hamıya mərhəmət göstərsin.

**Allaha həmd**

33Allahın zənginliyi nə böyük,

Hikməti və biliyi nə dərindir!

Onun hökmləri necə də ağlasığmaz,

Yolları necə də anlaşılmazdır!

34«Rəbbin ağlını kim dərk etdi?

Ona kim məsləhətçi oldu?»

35«Kim Ona bir şey verdi ki,

Əvəzini Ondan istəyə bilsin?»

[36]Çünki hər şeyin mənbəyi Odur, hər şey Onun vasitəsilə və Onun üçün var oldu. Ona
əbədi olaraq izzət olsun! Amin.

# Romalılara 12

### Bədənlərinizi Allaha təqdim edin

[1]Beləliklə, ey qardaşlar, Allahın mərhəməti xatirinə sizə yalvarıram ki, bədənlərinizi diri,
müqəddəs və Allahı razı salan bir qurban olaraq Ona təqdim edin; bu sizin ağılla etdiyiniz
ibadətdir. [2]Bu dövrə uyğunlaşmayın, əksinə, düşüncənizin təzələnməsi ilə dəyişin ki,
Allahın yaxşı, razı salan və kamil iradəsini ayırd edəsiniz. [3]Mənə verilən lütflə sizin hər
birinizə deyirəm ki, lazım olduğundan artıq özünüz barədə yüksək fikirdə olmayın; lakin
hər biriniz Allahın ona verdiyi imanın ölçüsünə görə ağıl-kamalla düşünün. [4]Çünki bizim
bir bədənimizdə çoxlu üzvlər olduğu halda onların hər birinin vəzifəsi heç də eyni deyil.
[5]Eləcə biz də çox olduğumuz halda Məsihdə bir bədənik və ayrı-ayrılıqda bir-birimizə
bağlı üzvlərik. [6]Allahın bizə bağışladığı lütfə görə müxtəlif ruhani ənamlarımız var. Bir
kəsin ənamı peyğəmbərlikdirsə, imanının ölçüsünə görə peyğəmbərlik etsin; [7]ənamı
xidmətdirsə, xidmət etsin; müəllimlikdirsə, öyrətsin; [8]nəsihət verəndirsə, nəsihət versin;
pay verəndirsə, səxavətlə, rəhbərdirsə, səylə, mərhəmət göstərəndirsə, sevinə-sevinə öz
işini görsün.

### Məhəbbətlə rəftar edin

[9]Qoy məhəbbətiniz riyasız olsun. Pislikdən ikrah edin, yaxşılığa bağlanın. [10]Qardaşlıq
sevgisi ilə bir-birinizi sevin. Hörmət göstərməkdə bir-birinizi qabaqlayın. [11]Səyiniz
azalmasın, ruhunuz alovlu olsun. Rəbbə qulluq edin. [12]Ümidinizlə sevinin. Əziyyətdə
dözümlü olun. Dayanmadan dua edin. [13]Ehtiyac içində olan müqəddəslərə yardım
etməyə şərik olun. Qonaqpərvər olmağa səy göstərin. [14]Sizi təqib edənlərə xeyir-dua
verin; lənət yox, xeyir-dua verin. [15]Sevinənlərlə sevinin, ağlayanlarla ağlayın. [16]Bir-
birinizlə həmfikir olun; təkəbbürlü olmayın, məzlumlarla dostluq edin. Özünüzü ağıllı
saymayın. [17]Heç kimə pislik əvəzinə pislik etməyin. Hamının gözündə yaxşı olan işlər
görməyə diqqət yetirin. [18]İmkan daxilində bacardıqca bütün adamlarla sülh içində
yaşayın. [19]Ey sevimlilər, heç kəsdən qisas almayın, Allahın qəzəbinə yer verin. Çünki
yazılıb ki, Rəbb belə deyir: «Qisas Mənimdir, əvəzini Mən verəcəyəm». [20]Əksinə,
«düşmənin acdırsa, onu yedizdir, susuzdursa, ona su ver. Belə etməklə sanki onun başına
köz tökərsən». [21]Pislik sənə üstün gəlməsin, pisliyə yaxşılıqla qalib gəl.

# Romalılara 13

### Hakimiyyətlərə tabe olmaq

[1]Hər kəs başçılıq edən hakimiyyətlərə tabe olsun. Çünki Allah tərəfindən təyin
olunmayan hakimiyyət yoxdur; mövcud olan hakimiyyətlər Allah tərəfindən təyin
olunub. [2]Buna görə də hakimiyyətə qarşı çıxan adam Allahın təyin etdiyinin əleyhinə

çıxır və əleyhinə çıxan belələri özlərini mühakiməyə düçar edir. [3]Çünki yaxşı iş görənlər
deyil, pis iş görənlər hökmdarlardan qorxmalıdır. İstəyirsənmi hakimiyyətdən
qorxmayasan? Yaxşı iş gör, onda o səni tərifləyər. [4]Hökmdar sənin xeyrin üçün Allaha
xidmət edir. Amma pis iş görürsənsə, qorx! Çünki o, əbəs yerə qılınc daşımır, Allaha
xidmət edir ki, pis iş görəndən qisas alsın və Allahın qəzəbini onun başına gətirsin. [5]Bu
səbəbdən yalnız qəzəbə görə deyil, vicdanın xatirinə də hakimiyyətə tabe olmaq lazımdır.
[6]Vergini də siz buna görə ödəyirsiniz. Çünki hökmdarlar Allahın xidmətçisidir və məhz
bu işlə daim məşğuldurlar. [7]Beləliklə, hər kəsə öz haqqını verin: vergi haqqı olana vergi,
gömrük haqqı olana gömrük, qorxu haqqı olana qorxu, hörmət haqqı olana hörmət.

**Bir-birinizi sevin**

[8]Bir-birinizi sevməkdən başqa heç nədə heç kimə borclu qalmayın; çünki başqasını
sevən Qanunu yerinə yetirmiş olur. [9]Belə ki «zina etmə, qətl etmə, oğurluq etmə, tamah
salma» və bunlardan başqa nə əmr varsa, bu kəlamla yekunlaşdırmaq olar: «Qonşunu
özün kimi sev». [10]Sevən insan qonşusuna qarşı pis iş görməz, buna görə də məhəbbət
Qanunun tamamlanmasıdır. [11]Zəmanəni, yuxudan ayılmaq vaxtınızın gəldiyini anlayaraq
belə rəftar edin. Çünki indi xilasımız iman etdiyimiz vaxtda olduğundan daha yaxındır.
[12]Gecə keçdi, gündüz isə yaxınlaşdı; buna görə də qaranlığın əməllərini üzərimizdən ataq
və nurun silahlarına bürünək. [13]Gün işığında olduğu kimi ləyaqətlə həyat sürək; eyş-
işrətə və sərxoşluğa, əxlaqsızlığa və pozğunluğa, münaqişəyə və qısqanclığa qapılmayaq.
[14]Əksinə, Rəbb İsa Məsihə bürünün və cismani təbiətinizin ehtiraslarına uymaq fikrində
olmayın.

# Romalılara 14

**Başqasını mühakimə etməyin**

[1]İmanı zəif olanı qəbul edin, amma onun fikirləri ilə mübahisəyə girişməyin. [2]Biri inanır
ki, hər şeyi yeyə bilər, amma imanı zəif olan yalnız tərəvəz yeyir. [3]Yeyən yeməyənə xor
baxmasın, yeməyən də yeyəni mühakimə etməsin. Çünki Allah onu qəbul edib. [4]Sən
kimsən ki, başqasının xidmətçisini mühakimə edirsən? O xidmətçini haqlı yaxud haqsız
çıxarmaq ixtiyarı ağasına məxsusdur. Xidmətçi haqlı çıxacaq, çünki Rəbb onu haqlı
çıxarmağa qadirdir. [5]Kimsə bir günü o biri gündən üstün sayır, başqası isə hər günü eyni
sayır. Qoy hər kəs öz fikrinə əmin olsun. [6]Bir günü fərqləndirən adam onu Rəbb üçün
fərqləndirir. Yeyən Rəbb üçün yeyir, çünki Allaha şükür edir. Yeməyən də Rəbb üçün
yemir və Allaha şükür edir. [7]Çünki bizim heç birimiz özümüz üçün yaşamırıq və özümüz
üçün ölmürük. [8]Yaşayırıqsa, Rəbb üçün yaşayırıq, ölürüksə, Rəbb üçün ölürük. Buna
görə yaşasaq da, ölsək də Rəbbə məxsusuq. [9]Çünki Məsih ona görə ölüb yenə yaşadı ki,
həm ölülərin, həm də yaşayanların Rəbbi olsun. [10]Bəs sən nə üçün qardaşını mühakimə
edirsən? Yaxud nə üçün qardaşına xor baxırsan? Axı biz hamımız Allahın hökm
kürsüsünün qarşısında dayanacağıq. [11]Çünki yazılıb: «Rəbb deyir:

Varlığıma and içdim,

Hər diz önümdə çökəcək,

Hər dil Allah olduğumu bildirəcək».

[12]Beləcə hər birimiz özü üçün Allaha hesabat verəcək. [13]Buna görə də daha bir-birimizi
mühakimə etməyək, əksinə, qərara alın ki, heç bir qardaşın önünə onu büdrədən yaxud
pis yola çəkən bir şey qoymayasınız. [14]Rəbb İsada olaraq əminəm ki, heç bir şey
özlüyündə murdar deyil. Amma nəyisə murdar sayan adam üçün o şey murdardır. [15]Əgər
sənin qardaşın yediyin bir şeydən ötrü kədərlənirsə, onda sən məhəbbətə görə həyat
sürmürsən. Uğrunda Məsihin öldüyü adamı öz yeməyinə görə həlaka təslim etmə.
[16]İmkan verməyin ki, sizin yaxşı hesab etdiyiniz bir şey pislənsin. [17]Çünki Allahın
Padşahlığı yemək-içməkdən ibarət deyil, Müqəddəs Ruhda salehlik, sülh və sevincdən
ibarətdir. [18]Kim beləcə Məsihə qulluq edirsə, Allahı razı salır və insanların da rəğbətini
qazanır. [19]Beləliklə, özümüzü sülh gətirən və bir-birimizi inkişaf etdirən işlərə həsr edək.
[20]Qidaya görə Allahın işlərini pozma! Hamısı təmizdir. Amma yeməyi ilə başqasının
büdrəməsinə səbəb olan adam pislik edir. [21]Ət yeməyərək, şərab içməyərək qardaşının
büdrəməsinə səbəb olmayan isə yaxşılıq edir. [22]Bu məsələlərdə etiqadını Allahın önündə
öz ürəyində saxla. Seçdiyi bir işdə özünü mühakimə etməyən adam nə bəxtiyardır!
[23]Amma bir yeməyə şübhə edən adam o yeməyi yeyirsə, məhkum olur. Çünki gördüyü iş
imana əsaslanmır və imana əsaslanmayan hər şey günahdır.

# Romalılara 15

### İmanınız günbəgün artsın

[1]Biz imanı güclü olanlar imanı gücsüz olanların zəifliklərinə dözməliyik və yalnız
özümüzü razı salmamalıyıq. [2]Hər birimiz yaxşılıq naminə inkişaf etdirmək məqsədi ilə
qonşumuzu razı salaq. [3]Çünki Məsih də Özünü razı salmadı. Necə ki yazılıb: «Səni
təhqir edənlərin təhqirləri altında qaldım». [4]Bundan əvvəl yazılanların hamısı bizi
öyrətmək üçün yazıldı ki, dözümlə və Müqəddəs Yazıların ürək-dirəyi ilə ümidimiz
olsun. [5]Dözüm verən və ürəkləndirən Allah Məsih İsanın istəyinə uyğun olaraq sizə
həmfikirlilik bəxş etsin ki, [6]hamınız birlikdə və bir səslə Rəbbimiz İsa Məsihin Atası
olan Allahı izzətləndirəsiniz. [7]Buna görə də Məsih sizi qəbul etdiyi kimi siz də Allahın
izzəti üçün bir-birinizi qəbul edin. [8]Mən də bunu bildirirəm: Məsih Allahın haqlı
olduğunu göstərmək üçün sünnətlilərin xidmətçisi oldu ki, əcdadlara verilən vədləri
yerinə yetirsin; [9]beləcə başqa millətlər də Allahın mərhəmətinə görə Onu
izzətləndirsinlər. Necə ki yazılıb: «Buna görə millətlər arasında

Sənə şükür edəcəyəm,

İsminə tərənnüm söyləyəcəyəm».

[10]Yenə deyilir ki: «Ey millətlər, Onun xalqı ilə birgə sevinin!»

[11]Başqa bir yerdə: «Ey bütün millətlər, Rəbbə həmd edin!

Ey bütün ümmətlər, Onu mədh edin!»

12 Yeşaya da belə deyir: «Yesseyin Kökü gələcək,

Millətlərə hökmran olmaq üçün ucalacaq,

Millətlər Ona ümid bağlayacaq».

13 Qoy ümid mənbəyi olan Allah iman edən sizləri hər cür şadlıq və sülhlə doldursun ki,
Müqəddəs Ruhun qüdrəti ilə ümidlə dolub-daşasınız.

**Məsihin xidmətçisi**

14 Ey qardaşlarım, mən sizin barənizdə əminəm ki, siz yaxşılıqla dolu, hər cür biliklə
kamilsiniz və bir-birinizə nəsihət verməyə qadirsiniz. 15 Amma Allahın mənə bəxş etdiyi
lütflə bəzi məsələləri sizə xatırlatmaq üçün bu sözləri cəsarətlə yazmışam. 16 Həmin lütfə
görə mən başqa millətlər üçün Məsih İsanın xidmətçisi oldum ki, bir kahin kimi Allahın
Müjdəsini vəz edim və başqa millətlər Müqəddəs Ruhla təqdis edilərək Allaha məqbul
olan qurban olsunlar. 17 Beləcə Allaha xidmət etdiyimə görə Məsih İsa ilə fəxr edirəm.
18 Başqa millətləri itaətə gətirmək üçün Məsihin mənim vasitəmlə söz və əməllə, əlamət
və xariqələrin qüvvəti ilə, Allahın Ruhunun qüdrəti ilə etdiklərindən başqa bir şey barədə
danışmağa cəsarət etmərəm. Belə ki mən Yerusəlimdən başlayıb İllirikum diyarına qədər
hər tərəfdə Məsihin Müjdəsini yayıb qurtardım. 19 Başqa millətləri itaətə gətirmək üçün
Məsihin mənim vasitəmlə söz və əməllə, əlamət və xariqələrin qüvvəti ilə, Allahın
Ruhunun qüdrəti ilə etdiklərindən başqa bir şey barədə danışmağa cəsarət etmərəm. Belə
ki mən Yerusəlimdən başlayıb İllirikum diyarına qədər hər tərəfdə Məsihin Müjdəsini
yayıb qurtardım. 20 Bununla birgə, Müjdəni Məsihin adının hələ eşidilmədiyi yerlərdə
yaymaq başlıca məqsədim oldu ki, bir başqasının qoyduğu təməl üzərində bina
qurmayım. 21 Amma necə ki yazılıb: «Onun haqqında xəbəri olmayanlar görəcək,

Eşitməyənlər anlayacaq».

**Paulun Romaya getmək niyyəti**

22 Bu səbəbdən sizin yanınıza gəlmək niyyətim bir neçə dəfə əngəlləndi. 23 İndi isə bu
diyarlarda işləyəcəyim başqa bir yer qalmır, illərdir ki, yanınıza gəlməyi arzu edirdim.
24 Buna görə İspaniyaya getmək niyyətindəyəm və ümidvaram ki, yolüstü sizi də görüm
və əvvəl qısa müddət də olsa, dostluğunuzdan zövq alandan sonra məni oraya yola
salasınız. 25 Amma indi mən müqəddəslərə yardım etmək üçün Yerusəlimə gedirəm.
26 Çünki Makedoniya və Axayyada olanlar Yerusəlimdə müqəddəslər arasındakı kasıblar
üçün ianə yığmağı məsləhət bildilər. 27 Əlbəttə, özləri məsləhət bildilər, həm də əslində
onlara borcludurlar. Çünki başqa millətlər Yerusəlim müqəddəslərinin ruhani nemətlərinə
şərik oldularsa, maddi nemətləri ilə onlara xidmət etməyə borcludurlar. 28 Beləcə bu işi
başa çatdırıb əldə olunan səmərəni onlara çatdırandan sonra sizin yerlərdən keçib
İspaniyaya gedəcəyəm. 29 Bilirəm ki, yanınıza gələndə Məsihin tam xeyir-duası ilə
gələcəyəm. 30 Ey qardaşlar, Rəbbimiz İsa Məsihin xatirinə, Ruhun məhəbbəti naminə sizə
yalvarıram, Allaha mənim üçün etdiyiniz dualarda mənimlə birlikdə mübarizə aparın ki,

[31]Yəhudeyada olan imansızlardan xilas olum və Yerusəlimə olan yardımımı müqəddəslər
qəbul etsin. [32]Beləliklə, istəyirəm ki, Allahın iradəsi ilə sevinclə yanınıza gəlib sizinlə
könlümü fərəhləndirim. [33]Qoy sülh qaynağı olan Allah sizin hamınızla olsun. Amin.

# Romalılara 16

### Salamlar və xahişlər

[1]Kenxreyadakı cəmiyyətin xidmətçisi olan bacımız Fibi barədə sizə zəmanət verirəm.
[2]Onu Rəbdə olduğu üçün müqəddəslərə layiq tərzdə qəbul edin, nə ehtiyacı varsa, siz
ona kömək edin. Çünki o, çoxlarına və şəxsən mənə də hamilik edib. [3]Məsih İsada
həmkarlarım olan Priskila və Akilaya salam söyləyin. [4]Onlar mənim həyatım üçün öz
canlarını təhlükəyə saldılar. Onlara yalnız mən yox, başqa millətlərin bütün cəmiyyətləri
də təşəkkür edir. [5]Onların evində toplanan cəmiyyətə də salam söyləyin. Asiya
vilayətindən Məsih üçün ilk məhsul olan sevimli qardaşım Epenetə salam çatdırın. [6]Sizin
üçün xeyli zəhmət çəkmiş Məryəmə salam söyləyin. [7]Həvarilər arasında şöhrət
qazanmış, məndən əvvəl Məsihdə olmuş soydaşlarım və zindan yoldaşlarım Andronikosa
və Yuniyaya salam çatdırın. [8]Rəbdə mənə sevimli olan Ampliyata salam söyləyin.
[9]Məsihdə həmkarımız olan Urbana və mənə sevimli olan Staxisə salam çatdırın.
[10]Məsihdə sədaqəti sübut edilmiş Apellisə salam söyləyin. Aristobulun ailəsindən
olanlara salam çatdırın. [11]Soydaşım Hirodiona salam söyləyin. Narkisin ailəsindən
Rəbdə olanlara salam çatdırın. [12]Rəbbin xidmətində zəhmət çəkmiş Trifena ilə Trifosaya
salam söyləyin. Rəbbin xidmətində xeyli zəhmət çəkmiş sevimli Persisə salam çatdırın.
[13]Rəbdə seçmə insan olan Rufusa və mənə də analıq edən anasına salam söyləyin.
[14]Asinkritə, Fleqona, Hermesə, Patrobaya, Hermaya və onlarla birlikdə olan bacı-
qardaşlara salam çatdırın. [15]Filoloqa, Yuliyaya, Nereyə və onun bacısına, Olimpaya və
onlarla birlikdə olan bütün müqəddəslərə salam söyləyin. [16]Bir-birinizi müqəddəs öpüşlə
salamlayın. Məsihin bütün cəmiyyətləri sizə salam göndərir. [17]Qardaşlar, sizə yalvarıram
ki, öyrəndiyiniz təlimin əleyhinə çıxaraq ayrılıq salan və büdrəməyə səbəb olan adamlara
nəzarət edin və onlardan uzaq durun. [18]Çünki belə adamlar Rəbbimiz Məsihə deyil, öz
qarınlarına qulluq edirlər; onlar yağlı və yaltaq nitqləri ilə sadəlövh adamların ürəklərini
tovlayırlar. [19]Sizin itaətiniz hamıya bəllidir. Buna görə də sizin üçün sevinirəm. Amma
istəyirəm ki, yaxşı işlərdə müdrik, pis işlərdə məsum olasınız. [20]Sülh qaynağı olan Allah
Şeytanı tezliklə ayaqlarınızın altında əzəcək. Rəbbimiz İsanın lütfü sizə yar olsun!
[21]Həmkarım Timotey, soydaşlarım Luki, Yason və Sosipater sizə salam göndərir. [22]Bu
məktubu yazıya alan mən Terti də Rəbbin ismi ilə sizə salam söyləyirəm. [23]Məni və
bütün cəmiyyəti qonaq saxlayan Qayın sizə salamı var. Şəhərin xəzinədarı olan Erast və
Kvart qardaş da sizə salam göndərir. [24]

### Allaha əbədi izzət olsun

[25]Allah mənim elan etdiyim Müjdəyə və İsa Məsih barədə vəzə görə, əzəldən bəri gizli
saxlanmış sirri aydınlaşdıran vəhyə uyğun olaraq, sizi qüvvətləndirməyə qadirdir; [26]bu
həmin sirdir ki, indi aşkar olmuş və əbədi Allahın əmrinə əsasən peyğəmbərlərin Yazıları
vasitəsilə bütün millətlərin iman gətirib itaət etməsi üçün bəyan edilmişdir; [27]o yeganə və
müdrik Allaha İsa Məsih vasitəsilə əbədi izzət olsun! Amin.